# “Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya” üzrə Azərbaycan Respublikasının elmi orqanlarının təyin edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (nərə cinsli balıq növləri üzrə) və Azərbaycan Milli Elmlər Akademiyası (digər vəhşi fauna və yabanı flora növləri üzrə) 1973-cü il martın 3-də Vaşinqton şəhərində imzalanmış “Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya” üzrə Azərbaycan Respublikasının elmi orqanları təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (nərə cinsli balıq növləri üzrə) və Azərbaycan Milli Elmlər Akademiyasının (digər vəhşi fauna və yabanı flora növləri üzrə) Azərbaycan Respublikasının “Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya” üzrə elmi orqanlarının təyin edilməsi barədə İsveçrə Konfederasiyası Hökumətinə müvafiq bildiriş göndərsin.

3. “Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya” üzrə Azərbaycan Respublikasının elmi orqanının təyin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 472 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 7, maddə 534; 2003-cü il, № 9, maddə 512) qüvvədən düşmüş hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 may 2006-cı il
№ 1472